KOBİA

Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

# "KOB könüllüləri" Proqramı

Gənclərin bilik və bacarıqlarının artırılmasına, əmək vərdişlərinə yiyələnmələrinə dəstək, eləcə də ölkəmizdə uğurla həyata keçirilən könüllü hərəkatına töhfə vermək məqsədilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyində (KOBİA) "KOB könüllüləri" Proqramı həyata keçirilir.

**Proqrama necə qoşulmaq olar?**
Proqrama qoşulmaq istəyənlər Agentliyin www.smb.gov.az rəsmi internet səhifəsində "KOB könüllüsü ol" bölməsində qeydiyyatdan keçməlidir. "KOB könüllüsü ol" bölməsinə daxil olan müraciətlər dəyərləndirilir və könüllülərə dair seçim meyarlarına uyğun namizədlər Agentliyin könüllü ehtiyacı nəzərə alınmaqla könüllü fəaliyyəti üçün dəvət olunur.

**Proqram üzrə seçim meyarları**
- uyğun istiqamətdə ixtisas;
- komandada işləmək bacarığı;
- ünsiyyətcil, intizamlı və təşəbbüskar olmaq;
- Microsoft office proqramlarını bilmək;
- Dil biliklərinin olması üstünlükdür;

Ali və orta ixtisas təhsil müəssisələrində təhsil alan gənclər könüllü fəaliyyəti üçün Agentliyə müraciət edə bilərlər.
Proqram "KOB Master 1" və "KOB Master 2" olmaqla iki mərhələdən ibarətdir. Proqramda iştirak hər mərhələ üzrə 3 aydır.
Proqramı başa vurmuş iştirakçıların fəaliyyəti qiymətləndirilir və fəaliyyəti məqbul sayılan iştirakçılara müvafiq olaraq "KOB Master 1" və "KOB Master 2" sertifikatı təqdim edilir.

**Proqram çərçivəsində əldə edəcəkləriniz**
- ✓ 3-6 aylıq könüllü fəaliyyəti müddətində təcrübə;
- ✓ ilkin əmək vərdişlərinin formalaşması;
- ✓ komandada işləmək bacarığı;
- ✓ biznesyönümlü bilik və bacarıqların formalaşması.

**"KOB könüllüləri" Proqramına sən də qoşul!**

www.smb.gov.az